

# Xalqa, dövlətə layiqli xidmət

**Dövrünün bütün qüdrətli liderlərinin uğurunu şərtləndirən əsas cəhətlərdən biri məhz strateji düşüncə, zamanın axarını duymaq bacarığı və gələcəyə hazırlaşmaq əzmidir. Xalqa, dövlətə bu keyfiyyətlərə malik Lider rəhbərlik edəndə bütün qeyri-müəyyənliklər hazırlıqlı qarşılanır, yaranmış fürsətlər anında dəyərləndirilərək reallaşdırılır, hətta ortaya çıxan çətinliklər belə yeni imkanlara çevrilir.**

Eyni zamanda əsl liderlərin hər zaman böyük strateji hədəfləri olur. Bu böyük məqsədlər əldə edildikdə isə dərhal qarşıya yeni vəzifələr qoyulur, resurslar bu dəfə də həmin amallara doğru səfərbər edilir. Əks halda cəmiyyət həyatında durğunluq yaranar və qazanılmış nailiyyətlər tədricən zəifləməyə başlayar. Çünki dəyişiklik, inkişaf daim davam edən prosesdir və liderlər bunu hər kəsdən yaxşı duyaraq inkişaf proseslərinin ardıcıllığını, davamlılığını, dayanıqlılığını təmin etmiş olurlar.

## Yeni minilliyin Lideri

Yeni minilliyimizin ən parlaq dövlət adamlarından olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin, verdiyi qərarların məzmununu təhlil etdikdə dövlət rəhbərimizin qüdrətli liderlərə xas cəhətləri necə uğurla öz şəxsiyyətində birləşdirdiyini görə bilərik. Bir daha əmin oluruq ki, 2003-cü ilin prezident seçkiləri ərəfəsində ölkənin gələcəyi ilə bağlı Ümummilli Liderin sözünü gözləyən xalqa cənab İlham Əliyevin namizədliyini dəstəkləməyi tövsiyə edərkən "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən Heydər Əliyev bu inamında nə qədər haqlıymış.

Azərbaycan Prezidenti kimi ilk dəfə and içərkən cənab İlham Əliyev "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" demişdi. Verdiyi bütün sözlərə sadiqliyi, hər bir sözünə imzası qədər dəyər verməsi zaman-zaman təsdiqləndi. Həyata keçirdiyi siyasətlə, ölkəmizə gətirdiyi inkişafla, bu yurdun hər bir sakininin gündəlik həyatında yaratdığı rifah mənzərəsi ilə, ölkəboyu aparılan quruculuqla həqiqətən hər bir vətəndaşının Prezidenti ola bildı.

## Şərəf salnaməsinin müəllifi

Prezident İlham Əliyev Ulu Öndərin çox böyük çətinliklər, fədakarlıqlar hesabına yaratdığı sabitlik və inkişaf mühitini qorudu, xalqı yeni nailiyyətlərə doğru apardı. Azərbaycan dövlətinin, vətəndaşlarımızın təhlükəsizliyini, sosial-iqtisadi inkişaf üçün həyati dərəcədə vacib olan sabitlik mühitini daha da möhkəmləndirdi, ölkəmizin yeni dövrdə də inkişaf yolunda inamla addımlaması üçün lazımi şəraiti yaratdı.

Hər bir Azərbaycan vətəndaşının Prezidenti həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində dövlətimizi tarixinin ən qüdrətli dövrünə yetirdi. Belə bir mərhələnin yaradıcısı şərəf salnaməsinin müəllifi oldu. Yeni nəsil özündən əvvəlki nəslin yaratdıqlarının təhlilini aparır və davamlı islahatlarla, yeniliklərlə bu nəticələri üstələyir, dəyişir, dövrün ruhuna daha da uyğunlaşdırır. Ona görə ki, zaman bir yerdə dayanmır, dünyanın çağırışları, insanların gözləntiləri dəyişir. Buna uyğun addımlar vaxtında atılmasa, inkişaf axarından uzaq düşmək olar. Azərbaycan Prezidenti də həyata keçirilən köklü islahatlarla, miqyaslı qərarlarla, yenilik ruhu ilə dövlətimizin inkişaf sürətini zamanın ahənginə uzlaşdırır. Burada ən mühüm olan milli dövlətçilik prinsiplərinə sadiqlik məsələsidir. Prezident İlham Əliyev bu prinsiplərə, xalqın inkişaf amallarına hər zaman sadiqdir. Onun baxışlarında, ideallarında, atdığı addımlarda əsrlərboyu Azərbaycan xalqının, dövlətinin inkişafına çalışmış, ömrünü bu məqsədə sərf etmiş, imzalar içində millətimizin imzasını görmək istəmiş bütün böyük şəxsiyyətlərimizin arzularını görə bilərik. Dövlətimizin başçısı o böyük simalarımızın ideallarını reallaşdırır, onların bir zamanlar xəyal kimi gördüklərini, can atdıqlarını gerçəklik kimi gündəlik həyatımıza gətirir.

## Qalib Ali Baş Komandan

Hər bir Azərbaycan vətəndaşının Prezidenti təcavüzkar Ermənistan dövlətinin təxminən 30 ilə yaxın işğal altında saxladığı, dağıdıb tar-mar etdiyi, xarabazara çevirdiyi yurd yerlərimizi, köksünə düşmən səngərləri ilə dağ çəkilmiş yaralı torpağımızı, Qarabağımızı, Zəngəzurumuzu işğalçılardan təmizlədi, ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Müzəffər Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Şuşada, işğaldan azad edilmiş başqa ərazilərimizdə üçrəngli bayrağımızı səmalara ucaltdı.

Azərbaycan xalqı təxminən 30 il çəkən işğala cəmi 44 gün içində son qoydu. Ordumuzun bu qələbəsi dünyanın hərb tarixinə nümunə kimi yazıldı. Azərbaycan tətbiq etdiyi innovativ silahlarla, Ermənistanın bütün azğınlıqlarına rəğmən mülki əhaliyə, mülki obyektlərə qarşı ləyaqətli davranışları ilə XXI əsrin müharibəsini apardı. Müzəffər Ordumuzun bu qələbəsi, aparılan döyüş əməliyyatlarının xarakteri dünyanın aparıcı hərbi məktəblərinin tədris materiallarına daxil edildi.

Azərbaycan Prezidenti diplomatiya meydanında da qalib gəldi. Ərazilərimiz işğaldan azad edildikdən sonra gün işığına çıxan həqiqətlər, dünyaya təqdim edilən mənzərələr Ermənistanın, ermənilərin əsl xislətini hər kəsə göstərdi. Xarabazara çevrilmiş yurdlarımızla, dağıdılmış mədəniyyət ocaqlarımızla, tarixi abidələrimizlə, viran edilmiş infrastrukturla hamı gördü ki, ermənilər təxminən 30 illik işğal dövründə bu torpaqlarda nə qədər amansızcasına vandalizmlə məşğul olublar.

Tarixi zəfərimizdən sonra Azərbaycanın bu torpaqlarda başladığı genişmiqyaslı quruculuq-bərpa işləri kimin hansı dəyərlərin təmsilçisi olduğunu - Ermənistanın müharibəni, işğalı, dağıtmağı, viran qoymağı, vandalizmi, quldurluğu, Azərbaycanın isə sülhü, quruculuğu, davamlı inkişafı, əməkdaşlığı, insanın rifahını özünə əsas məram seçdiyini bir daha təsdiqlədi. Bununla, əslində, dünya, nüfuzlu beynəlxalq təşkilatlar da fakt qarşısında qaldı. Bu gün Ermənistanın yanında olmaq, bu işğalçı ölkəyə dəstək vermək, əslində, onların bədnam əməllərinə şərik olmaq deməkdir. Azərbaycana dəstək isə haqqın, ədalətin, sülhün, inkişafın, insanın xoşbəxtliyinin yanında olmaq, bu ali məramlar uğrunda çalışmaq deməkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsindəki zəfərimizlə regionda yeni tarixi reallıqlar yaradıb. Mühüm geostrateji bölgə olan Cənubi Qafqaz regionunun bütün dünyada əsl inkişaf mərkəzinə, sülh və xoşbəxtlik məkanına, əməkdaşlıq mərkəzinə çevrilməsindən ötrü bəlkə də tarixdə heç zaman olmadığı qədər böyük fürsətlər yetişib. Azərbaycan Prezidenti bütün region ölkələri, bu bölgədə marağı olan dövlətlər üçün mühüm imkanlara qapı açıb. Ərazi bütövlüyümüzün bərpası, yeni geostrateji reallıqlar bölgənin kommunikasiyasından birgə faydalanmaqdan ötrü əlverişli şərait yaradır.

Azərbaycan Prezidentinin regionun gələcəyi ilə bağlı çox aydın hədəfləri var. Bu hədəflərə mümkün qədər tez bir zamanda çatmaq, vaxt itkisinə yol verməmək, yaranmış imkanları zamanında dəyərləndirmək üçün sıx əməkdaşlığa, mənasız iddiaları, kin-küdurəti, cılız maraqları kənara qoyub ali ideyalar uğrunda birgə fəaliyyətə böyük ehtiyac var.

## Sülh və xoşbəxtliyə doğru

Azərbaycan Prezidentinin həyata keçirdiyi daxili və xarici siyasətin uğurları sayəsində bu gün ölkəmiz regionun lideri, əsas söz sahibi kimi Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, davamlı inkişafın təmin olunması missiyasını da öz üzərinə götürüb. Azərbaycan bu missiyanı uğurla yerinə yetirməkdən ötrü bütün əhəmiyyətli imkanlara malikdir. Həyata keçirilən məqsədyönlü fəaliyyətin nəticəsi kimi ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi, demokratik islahatlar öz məqsədinə çatıb. Cəmiyyətimizdə dövlətçilik ənənələri gücləmib, vətəndaşlıq məsuliyyəti hissi formalaşıb. Ölkədə genişmiqyaslı sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilib və daha sürətli inkişaf üçün möhkəm təməllər formalaşdırılıb. Azərbaycanın güclü iqtisadi inkişafına əsaslanan böyük maliyyə imkanları uzun illərdən bəri sosial-iqtisadi sabitliyə, dayanıqlı artıma mühüm töhfələrini verir. Ölkəmizdə və ümumən regionda təhlükəsizliyin təminatına güclü potensial formalaşdırır.

Tarixi Zəfərimiz nəticəsində işğaldan azad edilmiş ərazilərimizin də Azərbaycanın ümumi inkişaf axarına qovuşması, bu torpaqlarda yenidən həyatın canlanması iqtisadi inkişaf üçün yeni bir mənbə yaradır. Xüsusilə beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərindən faydalanmaq fürsətlərini ortaya qoyur. Bütün bunlar, eləcə də regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Azərbaycanın Cənubi Qafqazın iqtisadiyyatının gələcək mənzərəsinin müəyyən edilməsində rolunu daha da genişləndirir və möhkəmləndirir.

Qərb və Şərq sivilizasiyalarının təmas nöqtəsində qərar tutan, mədəniyyətlərin dialoquna töhfələr verən Azərbaycan tarixi tolerantlıq ənənələri, mill-mənəvi dəyərləri ilə bütün dünyada multikulturalizm ideyalarını təbliğ edir, qarşılıqlı hörmət, fərqli mədəniyyətlərə sayğılı münasibət ruhunu aktuallaşdırır.

Azərbaycan yeni strateji dövrdə dayanıqlı şəkildə artan rəqabətqabiliyyətli iqtisadiyyatı, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət modelini, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olmağı, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışı, eləcə də təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmağı özünün milli prioritetləri elan edib. Bu hədəflərə doğru ardıcıl addımlar atılır. Ölkəmiz işğaldan azad edilmiş ərazilərdə vətəndaşlar üçün yeni salınan qəsəbələri "ağıllı kənd" konseptində inşa edir. Zəngilan rayonunun belə bir konseptdə qurulmuş Ağalı kəndinə artıq böyük köç baş verib. Ölkəmizin alternativ enerji resurslarından istifadə həlləri, dünyanın aparıcı şirkətləri ilə bu istiqamətdə imzalanmış investisiya layihələri və bu layihələrin icrası istiqamətində görülən işlərlə Azərbaycan regionu "yaşıl enerji" bölgəsinə çevirir. Cənubi Qafqazın tarixində yeni bir reallıq yaradır.

Azərbaycan Prezidenti İlham Əliyev əzmi, iradəsi, qətiyyəti, bir o qədər də müdrikliyi, gələcəyə aydın baxışı ilə regionu gələcəyə aparan Liderdir. Onun rəhbərliyi ilə yaşadığımız bölgə daha işıqlı, xoşbəxt, sülh və rifah içində görünür.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 25 dekabr.- S.14.